## Əli Nəcəfxanlı

### Gedib

Bir qız arzuların qanadlarında
Bakını tərk edib, Laçına gedib.
Şəhərli qızların diliylə desək,
Dünyanın o biri ucuna gedib.

Bir Laçını seçib quş adlarından
Quş kimi səkib də, o, şadlanıb da
İslanıb sevincin gürşadlarında
Az qala uçuna-uçuna gedib.

Günə gülümsəyir, Aydan yaşmanır
Baxtı yamanlamır, vaxtı daşlamır
Gül-çiçək içində gəzib xoşlanır
Çələng hörüb qoyub saçına gedib.

Yaşayır ilboyu baharı orda
Həyatın dadını çıxarır orda
Dünyada yermi var yuxarı ordan
Qovuşub taxtına-tacına, gedib.